*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 avqust 2018-ci il № 63 (2279) Qiyməti 25 qəpik

*Döyüş hazırlığı*

# “Biz qalib gələcəyik!”



*Motoatıcılar, tankçılar, artilleriyaçılar, bir sözlə, bütün hərbi qulluqçular Vətənimiz Azərbaycanın müdafiəsində əzmlə dayanıblar. Azərbaycan Ordusunun fəaliyyətində və döyüş potensialında öz yeri, öz çəkisi olan artilleriyaçılarımızın peşəkarlığı gündən-günə artmaqdadır. Dünya hərb tarixində ağırlığı və geniş imkanları ilə seçilən bu qoşun növündə xidmət etmiş çar ordusunun tanınmış generalları olan Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski artilleriya elminin mahir biliciləri sayılıblar. Rus topunun Allahı hesab edilən Ə.Şıxlinskinin artilleriya elminə gətirdiyi yeniliklər bu gün də tətbiq edilir. "Şıxlinski üçbucağı" artilleriya nəzəriyyəsində ən unikal kəşflərdəndir. Qarabağ müharibəsində peşəkarlığı ilə tanınan topçularımız da az olmayıb. Azərbaycanımızın ərazi bütövlüyü uğrunda fədakarlıq göstərən artilleriyaçılarımız dünya şöhrətli azərbaycanlı generalların davamçıları kimi bu şanlı ənənəni şərəflə davam etdirirlər.*

Ezam olunduğumuz ön xətdə yerləşən hərbi hissənin artilleriya divizionu daim səhra çıxışlarında olur, döyüş hazırlıqlarını artırır. Onların budəfəki döyüş hazırlığına biz də şahid oluruq.Təlim meydanında canlanma var idi. Topçularımızın növbəti səhra çıxışına ciddi hazırlığı gedirdi. Daim təlimlərdə döyüş hazırlıqlarını artıran artilleriyaçılarımız düşmənlə üzbəüz mövqedə ayıqsayıqdırlar, eyni zamanda, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Onlar bu yaxınlarda başa çatan taktiki təlimlərdə öz məharətlərini göstəriblər və bacarıqlı döyüşçü olduqlarını bir daha təsdiq ediblər.

Öyrənirəm ki, artilleriya bölməsinin manqa komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Yasin Alıyevin rəhbərlik etdiyi top heyətinin uğurları zəngindir. Heyət mart ayında bölmələr arasında ən yaxşı top heyəti üzrə keçirilən yarışlarda 3 dəfə, keçən ilki yarışlarda isə 2 dəfə birinci yeri qazanıb. Hazırda növbəti yarışlara hazırlaşırlar. Mənəvi dəyərlərlə silahlanan bu mübariz top heyətinin vətənsevərliyi hər birinin xarakterində öz əksini tapıb.

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə naziri Cəmşid Naxçıvanski adına Hərbi Liseydə aparılan təmir-tikinti işlərinin gedişini yoxlayıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən Müdafiə naziri general-polkovnik Zakir Həsənov avqustun 16-da Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olaraq əsaslı təmir-tikinti prosesi həyata keçirilən obyektlərə baxış keçirib.*





Müdafiə naziri inşaatın gedişatı ilə bağlı verilmiş tapşırıqların icrasını yoxlayıb, yerinə yetiriləcək işlərin keyfiyyətlə və vaxtında başa çatdırılması ilə bağlı konkret tapşırıqlar verib.

General-polkovnik Zakir Həsənov kursantların sosial məişət şəraitinin daha da yaxşılaşdırılması, gələcəyin zabitləri üçün ən yüksək standartlara cavab verən xidmət şəraitinin yaradılması və bir sıra digər məsələlər barədə də müvafiq göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Biz qalib gələcəyik!"

**(Əvvəli 1-ci səhifədə)**

Bölmədə bacarıqlı top komandiri kimi ad-san qazanan Yasin Alıyev əslən Füzuli rayonunun Alxanlı kəndindəndir. Beş ildən artıqdır ki, Azərbaycan Ordusunun sıralarında xidmət edir. Yüksək hazırlıqlı manqa komandirinin gizir hərbi rütbəsi alması üçün gizirlik kursuna təqdimatı göndərilib. Aprel döyüşlərinin fəal iştirakçılarından olan, ata-baba yurdunun düşmən işğalında olduğunu deyən Yasin bildirdi ki, keçən il Alxanlı kəndi istiqamətində erməni faşistləri balaca Zəhranı nənəsi ilə birlikdə öldürməklə növbəti dəfə vəhşi əməllərini dünyaya nümayiş etdirdilər. "Düşmən insanlığa sığmayan bu əməlinə görə lazımi cavabını aldı. Biz torpaqlarımızın azadlığı uğrunda döyüşlərə hazırlığımızı daima artırırıq. Artilleriya döyüşün Allahıdır və vacib qoşun növlərindən biridir. Bu gün dünyanın ən müasir artilleriya texnikası Azərbaycan Ordusunun silahlanmasına daxil edilib. Artilleriyamız aprel döyüşlərində öz sözünü dedi. Komandiri olduğum heyət hər cəhətdən inkişaf edir. Qurğuların yüksək səviyyədə idarə edilməsi, biliklərimizin artırılması, hərbçi şərəfinin həmişə uca tutulması sayəsində təlimlərdə uğurlar qazanırıq. Uğurlarımızın səbəbləri sırasına biliklərimizi, təcrübəmizi və öz gücümüzə arxalanmağımızı da daxil etmək olar. Qarşılıqlı məsuliyyət və kömək top heyətinin əsas dayaqlarından biridir. Top komandiri kimi yeni xidmətə başlayan əsgərləri öyrədir, texniki biliyimi böyük həvəslə onlara aşılayıram. İnanıram ki, növbəti yarışmalarda da top heyətimiz daha yüksək nəticələr qazanacaqlar. Bu gün əsgərlərimizin məişət şəraiti dəyişib. İndi onlar daha rahat şəraitdə yaşayır və xidmət edirlər. Bütün bunlar hər bir əsgəri öz üzərində daha çox işləməyə, hərbi bacarığa malik yaxşı döyüşçü olmağa çağırır."



Daha çox nəzəri xarakter daşıyan bugünkü təlim çalışmasında texnikanın marşının şəxsi heyətin piyada səfərilə əvəzlənməsi də əsgərlərin xeyli vacib informasiya əldə etməsinə yardımçı oldu. "Əsgər yataqxanasından parka, oradan toplanma rayonuna qədərki hərəkətlər, döyüş tapşırığının və taktiki durum barədə bilgilərin qəbul edilməsi, müəyyən vaxt normativlərinin işlənməsi bəziləri üçün təkrardısa, digərləri üçün təzə informasiya idi."

Manqa komandiri onu da dedi ki, heyət üzvləri yüksək döyüş vərdişlərinə yiyələniblər. "Sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Süleyman Ağamirov, əsgərlərdən Amil Məmmədov, Telman Yusifzadə, Ramazan Məmmədli, Səftər Mirzəyev öz döyüş bacarıqlarını əməli fəaliyyətlərində təsdiqləyiblər".

Səhra çıxışı öncəsi hərbi hissənin təlim meydanındakı bir bölməsinin hazırlığına müşahidəmizə son qoyub, "Biz qalib gələcəyik!" inamıyla xidmət edən topçularımıza qələbə sevinci və müqəddəs xidmətlərində uğurlar arzuladıq.

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu", fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

## Azərbaycan Ordusunun bölmələri heç bir əməliyyat həyata keçirməyib və əməliyyat şəraitinə tam nəzarət edir

*Ermənistan tərəfinin yaydığı məlumat həqiqətə uyğun deyil. Bu, düşmənin növbəti yalanı və təxribatıdır.*

Bunu Azərbaycan Ordusunun bölmələrinin guya əməliyyat keçirməsi barədə Ermənistan mətbuatında olan xəbərlərlə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Nazirlikdən bildiriblər ki, Ermənistan kütləvi informasiya vasitələrində yayılan məlumat işğalçı ordunun çökməsindən və öz cəmiyyətində hökm sürən deqradasiyadan diqqəti yayındırmaq cəhdindən başqa bir şey deyil. Azərbaycan Ordusunun bölmələri heç bir əməliyyat həyata keçirməyib. Ordumuz əməliyyat şəraitinə tam nəzarət edir.

# "Xəzərin hüquqi statusuna dair Konvensiyanın imzalanması Azərbaycan diplomatiyasının mühüm uğurudur"

*Xəzərin hüquqi statusuna dair Konvensiyanın imzalanması Azərbaycan üçün böyük perspektivlər açır. Bildiyiniz kimi, indiyədək Türkmənistan qazının Xəzərin dibi ilə keçməsi ilə əlaqədar problem var idi. Artıq Konvensiyanın imzalanması ilə Türkmənistan qazı gələcəkdə TANAP xəttinə qoşularaq Avropaya çıxarıla biləcək.*

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Arzu Nağıyev bildirib.

Bu tarixi sənədin imzalanmasında Azərbaycan diplomatiyasının rolunun danılmaz olduğunu deyən siyasi ekspert qeyd edib ki, yalnız "Xəzər beşliyi" ölkələri rəhbərlərinin, xüsusən Azərbaycan tərəfinin güclü siyasi iradəsi, daim xoş qonşuluq siyasətinə sədaqəti və xoş məramı bu Konvensiyanın imzalanması yolunda maneələrin aşılmasına imkan verib. "Azərbaycan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv işləyib və digər Xəzəryanı ölkələr kimi bu sənədin imzalanmasına öz töhfəsini verib. Konvensiyanın imzalanması ilə Xəzərdə müxtəlif layihələr birbaşa ölkəmizin iştirakı ilə həyata keçiriləcək", - deyə A.Nağıyev vurğulayıb.

Ekspert qeyd edib ki, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə su hövzəsində üzən gəmilər, su qurğularının hamısı məhz Azərbaycan və digər Xəzəryanı ölkələrin bayrağı altında üzəcək. Konvensiya Xəzəryanı ölkələrin sıx qarşılıqlı fəaliyyəti, iqtisadi, nəqliyyat xarakterli məsələlərin, xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına kömək edəcək məsələlərin həlli üçün geniş perspektivlər açır.

Arzu Nağıyev vurğulayıb ki, vacib nüanslardan biri də Xəzəryanı dövlətlərin hərbi qüvvələrinin dənizdə balansının qorumasıdır və bundan başqa digər dövlətlərin hərbi gəmilərinin Xəzərə daxil olması üçün bütün dövlətlərin razılığının əldə edilməsidir. Bundan başqa, dənizin dibi və onunla bağlı həyata keçiriləcək iqtisadi layihələr də gündəmdə olacaq. Ümumiyyətlə Konvensiyaya görə Xəzərdə üzən bütün gəmilər ancaq beş dövlətin bayrağı altında üzə bilərlər.

# Şəxsi heyətlə iş üzrə komandir müavinləri və hərbi psixoloqlarla seminar keçirilib

*Azərbaycan Ordusu kifayət qədər inkişaf etmiş ordudur. Son illərdə həyata keçirilən irimiqyaslı islahatlar nəticəsində şəxsi heyətin istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığı nəzərəçarpacaq dərəcədə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev məhz bu amili nəzərə alaraq demişdir: "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır". Ordumuz indi kifayət qədər müasir döyüş texnikaları ilə təchiz olunub, yeni-yeni hərbi hissələr inşa edilib.*



Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının mühüm tərkib hissələrindən biri də mənəvi tərbiyədir. Ordumuzda bu amilə olduqca ciddi diqqət yetirilir. Hərbi qulluqçuların kateqoriyalarına görə fərdi tərbiyə işinin xüsusiyyətləri bu prosesin tərkib hissəsi kimi diqqət mərkəzində saxlanılır. İstər Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən tədbirlər, istər ictimai-siyasi dərslər, istərsə də kütləvi tədbirlər bu istiqamətdə əhəmiyyətlidir.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində şəxsi heyətlə iş üzrə komandir müavinləri və hərbi psixoloqlarla "Azərbaycan Ordusunda tərbiyə işinin təşkili, hərbi qulluqçuların kateqoriyalarına görə fərdi tərbiyə işinin xüsusiyyətləri" mövzusunda keçirilən seminar məhz bu sahəyə ciddi diqqət göstərildiyinin təsdiqidir.



Mənəvi tərbiyə, ümumilikdə götürüldükdə tərbiyə prosesinin tərkib hissələrindən biridir. Deməli, bu prosesin arzulanan nəticələri üçün ictimai-siyasi işin bütün üsullarından, müxtəlif vasitələrdən istifadə olunmalıdır. İctimai-siyasi iş, müəyyən mənada, fərdi xüsusiyyətlərin nəzərə alınmasını, tərbiyə prosesində bunun hansı təsirlərə malik olduğunu müəyyənləşdirməyi tələb edir. Bu və bu kimi amillərin ümumiləşdirilməsinə, yarana biləcək problemlərin həllində hansı metodların tətbiq edilməsinin müəyyənləşdirilməsinə yönəldilən cari seminar mahiyyət etibarı ilə mövcud potensialın genişləndirilməsinə xidmət edirdi.

Tədbiri giriş sözü ilə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev açaraq seminarda hansı istiqamətlər üzrə fikir mübadiləsinin aparılmasını diqqətə çatdırdı.

Polkovnik Babək Səmidli çıxışında konkret olaraq hərbi qulluqçuların kateqoriyalarına görə fərdi xüsusiyyətlərindən danışdı, eyni zamanda kütləvi və fərdi tərbiyəvi işin kompleks şəkildə həyata keçirilməsini qeyd etdi.

Polkovnik-leytenant Rasim Manafov şəxsi heyətin baza təhsilinin, dünyagörüşünün, maraqlarının nəzərə alınmasının ehtimal edilən səmərəsindən söz açdı.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Ceyhun Əliyev çıxışında belə bir vacib məsələdə inancların, bu baxımdan dini ehkamların da nəzərə alınmasının zəruriliyi məsələsinə toxundu. Məlum bir həqiqətdir ki, çağırışçı hərbi xidmətə müəyyən təhsillə, dünyagörüşüylə, inancla gəlir. Hərbi hissədə bunlar, təbii ki, əhatəli öyrənilir və gələcək fəaliyyət üçün istiqamətləndirici məlumat bazası olur. Hərbi qulluqçular bu mühüm amili diqqət mərkəzində saxlamalıdırlar.

Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev seminarda məhz bu məqama xüsusi diqqət yetirilməsinin vacibliyini bildirərək qeyd etdi ki, tərbiyə işinin təşkilində hərbi qulluqçuların kateqoriyalarına görə fərdi tərbiyə işinin xüsusiyyətlərinə ciddi diqqət yetirilməlidir. Unutmaq olmaz ki, tərbiyə işi şəxsiyyətin, eyni zamanda, əsgərin kollektivdə şəxsiyyət kimi formalaşması və inkişafı üzrə həyata keçirilən məqsədyönlü, sistemli bir fəaliyyətdir. Nazir müavini qarşıda duran məsələləri diqqətə çatdırdı və tövsiyə etdi ki, hərbi qulluqçuların kateqoriyalarına görə fərdi tərbiyə işi əlaqələndirilmiş şəkildə qurulsun.

İlahiyyatçı Hacı Təyyar Hüseynli çıxışında islami dəyərlərin yaşadılmasının dövlətçiliyin tərkib hissəsi olduğunu vurğulayaraq qeyd etdi ki, fərdi xüsusiyyətlər və gənclərin vətəndaş kimi formalaşmasında islami dəyərlər nəzərə alınmalıdır.

Dövlət qulluqçusu İlqar Orucov çıxışında fərdi xüsusiyyətlərin aşkarlanmasında, sistemləşdirilməsində psixoloji testlərin əhəmiyyətindən, keçirilmə mexanizmindən, metodologiyasından və metodlarından danışdı.

Seminarda çıxış edən müxtəlif kateqoriyalı zabit və mütəxəssislər də tərbiyə işinin təşkilində fərdi xüsusiyyətlərin nəzərə alınmasından danışdılar.

Gəncə Zabitlər Evinin mövzu ilə bağlı təqdim etdiyi videoçarx nümayiş etdirildi.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev seminar iştirakçılarına bildirdi ki, fəaliyyətimizin mərkəzində insan amili durur. Onun duyğularına, əhval-ruhiyyəsinə, davranışına və hərəkətlərinə, pedoqoji cəhətdən peşəkarcasına, səvə-səvə təsir etməklə qorumaq və Vətənin müdafiəsinə səfərbər etmək bizim vəzifə borcumuzdur.

Tədbirin sonunda idarə rəisi şəxsi heyətlə iş üzrə komandir müavinlərinə və hərbi psixoloqlara tapşırıq və tövsiyələrini bildirdi.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi Hava Qüvvələri helikopter bölmələrinin taktiki-uçuş məşqləri keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələri (HHQ) helikopter bölmələrinin taktiki-uçuş məşqləri keçirilib.

Aviasiya vasitələrinin ümumqoşun hissələrinə havadan atəş dəstəyinin həyata keçirilməsi üzrə tapşırıqlar icra edilib.

Məşqlərin praktiki hissəsində bazalanma aerodromlarından uçuşlar edən helikopterlər poliqonlarda şərti düşmənin yer hədəflərini döyüş atışları ilə məhv ediblər.



Taktiki-uçuş məşqləri zamanı qarşıya qoyulan tapşırıqlar helikopter ekipajları tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib.

Döyüş atışlarının nəticələri yüksək qiymətləndirilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 avqust 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 92 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Aşağı Əskipara kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Baş Qərvənd, Kəngərli, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Tibb xidməti general-mayoru Dağlar Abdullayevin anım mərasimi keçirildi



*Böyük tarixi şəxsiyyət Heydər Əliyev çıxışlarından birində deyib: "Təbabət insan biliklərinin və əməli fəaliyyətinin bütün başqa sahələrindən daha artıq dərəcədə ümumbəşəri xarakter daşıyır". Ulu Öndərin bu fikirləri hərbi təbabətə də aid edilməlidir. Tibb xidməti general-mayoru Dağlar Abdullayevin hərbi xidməti də bu fikirlərin nə qədər həyati olduğunu təsdiqləyir...*

Azərbaycan Ordusu yeni yarandığı və formalaşdığı bir dövrdə tibb xidməti də yaranır və formalaşırdı. Bu mühüm işin təşkili kifayət qədər elmi və təşkilatçılıq qabiliyyətinə malik olan Dağlar Məmməd oğlu Abdullayevə etibar edildi. Qısa müddətdə hərbi tibb xidməti ordu quruculuğunun tərkib hissəsinə çevrildi.

General-mayor Dağlar Abdullayev 1938-ci il avqustun 15-də Ağdaş rayonunda anadan olub. 1956-cı ildə 1 saylı Ağdaş şəhər orta məktəbini bitirdikdən sonra Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub, 1960-cı ildə həmin institutu "həkim-stomatoloq" ixtisası üzrə bitirib. 1961-ci ildə kadr kimi Silahlı Qüvvələrə çağırılaraq, Cənub Qoşunlar Qrupu komandanının sərəncamına göndərilib. 1965-ci ilədək Cənub Qoşunlar Qrupu qvardiya tank diviziyasında "həkim-stomatoloq" kimi xidmət edən Dağlar Abdullayev sonralar xidmətini Zaqafqaziya Hərbi Dairəsi motoatıcı diviziyasında davam etdirib. 1968-ci ildən alayın tibb məntəqəsinin rəisi, baş həkimi, tibb xidməti rəisi vəzifələrində, 1978-1983-cü illərdə Cənub Qoşunlar Qrupu əlahiddə tibb-sanitar taborunun komandiri və hərbi hospitalın rəisi vəzifələrində xidmət edib. 1983-cü ildə SSRİ Müdafiə nazirinin əmri ilə xidmətini davam etdirmək üçün yenidən Zaqafqaziya Hərbi Dairəsi komandanının sərəncamına göndərilib, Zaqafqaziya Hərbi Dairəsi hospitalının rəisi təyin olunub.

1985-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Hərbi kafedrasının tədris üzrə rəisi təyin edilib.

1992-ci ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılıb, Müdafiə Nazirliyi Arxa Cəbhə İdarəsi hərbi-tibb şöbəsinin rəisi, 1993-cü ildən idarə rəisi, Silahlı Qüvvələrin Tibb xidməti rəisi vəzifələrində, 2009-cu ildən Müdafiə nazirinin məsləhətçisi, müşavirlər qrupunun müşaviri, inspektorlar qrupunun müşaviri vəzifələrində xidmət edib. 2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdən istefaya buraxılıb.

Dağlar Abdullayevə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 8 oktyabr 1994-cü ildə "tibb xidməti general-mayoru" ali hərbi rütbəsi verilib. Vətən qarşısında xidmətləri yüksək qiymətləndirilərək 2006-cı ildə "Azərbaycan Respublikasının Əməkdar həkimi" fəxri adına layiq görülüb, bir sıra medallarla təltif olunub.

İstefada olan tibb xidməti general-mayoru Dağlar Abdullayev 2014-cü il mayın 10-da ömrünün 76-cı ilində vəfat edib.

Avqustun 15-də Müdafiə nazirinin göstərişinə əsasən mərhum tibb xidməti general-mayoru Dağlar Abdullayevin anım mərasimi keçirildi.

İkinci Fəxri xiyabanda Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi tibb xidməti general-mayoru Natiq Əliyev və idarənin zabitləri general-mayorun məzarını ziyarət edərək üstünə gül dəstələri qoydular.

Tibb Baş İdarəsində keçirilən anım tədbirində ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların və tibb xidməti general-mayoru Dağlar Abdullayevin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.



Tədbiri tibb xidməti general-mayoru Natiq Əliyev açaraq öncə Müdafiə nazirinin başsağlığını mərhum generalın ailə üzvlərinə çatdırdı, ömür yoluna nəzər salaraq bildirdi ki, bu gün Azərbaycan Ordusunun tibb xidmətinin yaranmasında və fəaliyyətində böyük xidmətləri olmuş, Azərbaycanın ilk "tibb xidməti general-mayoru" rütbəsinə layiq görülmüş mərhum Dağlar Abdullayevin 80 illik yubileyi qeyd olunur. Ordumuzun sürətli inkişafı və qazandığı nailiyyətlər hərbi tibb sahəsinə də aid edilməlidir. Tibb xidməti general-mayoru Dağlar Abdullayevin xidmətləri sayəsində Azərbaycan Ordusunun tibb müəssisələri ən müasir tələblərə cavab verən avadanlıqlarla təchiz olunmuşdur. Mərhum Dağlar Abdullayev tibb işçilərinin peşə hazırlığının təkmilləşdirilməsi üçün ölkə xaricində təhsil almalarına, kurs keçmələrinə, konfrans və simpoziumlarda iştirak etmələrinə xüsusi diqqət yetirirdi. Tibb xidməti general-mayorunun məsuliyyəti və tələbkarlığı sayəsində hərbi təbabətimizdəki təqdiramiz irəliləyişləri çox böyük qürur hissiylə qeyd edirik. Bu gün Silahlı Qüvvələrin Baş Klinik Hospitalından başlayaraq ön cəbhədəki məntəqələrimizədək bütün tibb müəssisələri ən müasir tələblərə cavab verən tibbi avadanlıqlarla təmin olunub. Qürurla deyə bilərik ki, indi Baş Klinik Hospitalda ən mürəkkəb cərrahi əməliyyatlar da keçirilir ki, bu da hərbi tibbi təbabətin inkişaf səviyyəsinin göstəricisidir. Belə bir nailiyyətin əldə edilməsi Ali Baş Komandanın, Müdafiə Nazirliyi rəhbərliyinin bu sahəyə xüsusi sayğısı ilə bağlıdır..."

Ehtiyatda olan tibb xidməti polkovniki Xudu Xuduyev 23 illik xidmətinin 18 ilinin general-mayor Dağlar Abdullayevin rəhbərliyi müddətində olmasıyla qürurlanaraq qeyd etdi ki, Hərbi Tibb Fakültəsinin yaranması tibb xidməti general-mayoru Dağlar Abdullayevin adı ilə bağlıdır. "Onun xidmətləri sayəsində artıq 18 ildir ki, fəaliyyət göstərən Azərbaycan Tibb Universitetinin nəzdində Hərbi Tibb Fakültəsi adyunktura təhsili, hərbi elmi kadrların hazırlanması ilə də məşğuldur. Generalın hərbi səhiyyə qarşısındakı xidmətləri çoxdur".




Tibb xidməti polkovniki Mütəllim Həsənov generalın savadlı, məsuliyyətli həkim, təmkinli, nizam-intizamlı, uzaqgörən idarə başçısı və gözəl insan olmasından danışdı. "Sokrat deyirdi ki, "Yaxşı həkimdə dörd xüsusiyyət vardır: nəzakətlə dinləmək, ağıllı danışmaq, diqqətlə düşünmək və tərəfsiz qərar vermək". Dağlar müəllim bütün bu xüsusiyyətləri özündə cəmləmişdi. Tibb xidməti general-mayoru Dağlar Abdullayev bizlərin, onu sevənlərin qəlbində yaşayır və yaşayacaqdır".

Tibb xidməti polkovnikləri Həşim Cəfərov, Azad Məmmədov, Elşad Mehdiyev ehtiyatda olan tibb xidməti polkovnikləri Cümşüd Hüseynov, Şəmsəddin Rzayev, Firudin Qarabəyov, ehtyatda olan polkovnik-leytenant Teymur Tağıyev və başqaları çıxış edərək tibb xidməti general-mayoru Dağlar Abdullayevlə bağlı xatirələrini bölüşərək dəyərli insani xüsusiyyətləri ilə hamının ehtiramını qazandığından söz açdılar.

Ailə üzvləri adından Raul Məmmədov göstərilən diqqət və qayğıya görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

... Xalq şairi Səməd Vurğunun bir şeirinin beytini xatırlayıram:

Əbədi bir nəğmə tək
qalacaqdır dünyada,
Sevərək yaşayanlar,
sevilərək ölənlər...

Tibb xidməti general-mayoru Dağlar Abdullayev dövlətini sevirdi, xalqını sevirdi, ordumuzu sevirdi...

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "ADEX-2018" Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə bağlı hazırlıq işləri davam etdirilir

Müdafiə Sənayesi Nazirliyinin (MSN) təşəbbüsü və təşkilatçılığı ilə sentyabrın 25-dən 27-dək Bakıda "ADEX-2018" Azərbaycan Beynəlxalq müdafiə sərgisi keçiriləcək.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, regionda ilk dəfə 2014-cü ildə "ADEX" adı altında Azərbaycanda keçirilmiş və iki ildən bir təkrarlanan bu sərgi, silah və hərbi texnikanın nümayişi üçün təşkil olunan ən genişmiqyaslı tədbirlərdəndir. Üçüncü dəfə təşkil olunan "ADEX" sərgisi müasir silah və avadanlıqların möhtəşəm nümayişi ilə yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin aydın göstəricisi olacaq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ənənəvi olaraq sərgini ziyarət etməsi bu tədbirin əhəmiyyətini daha da artırır.

Bakı Ekspo Mərkəzində keçiriləcək "ADEX-2018" sərgisində dünyanın inkişaf etmiş ölkələrindən 200-dən çox şirkətin iştirakı nəzərdə tutulur. Azərbaycan, Türkiyə, Fransa, Rusiya, İsrail, Belarus, Pakistan, Serbiya, Ukrayna və digər ölkələr bu sərgidə milli qruplarla çıxış edəcəklər. İştirakçı ölkələr arasında Bolqarıstan, Çin, İtaliya, Litva, Niderland və digər dövlətlərin müdafiə sənayesi sektorunu təmsil edən aparıcı şirkətlər də yer alacaq. Sərgi Bakı Ekspo Mərkəzinin üç pavilyonunu, eləcə də açıq havada yerləşən meydançanı əhatə edəcək.

Müdafiə Sənayesi Nazirliyinin pavilyonu mərkəzin üçüncü zalında yerləşəcək. Bu pavilyonda nazirliyin müəssisələrində yaradılan və istehsal edilən ən son silah və hərbi texnikalar nümayiş olunacaq. Burada iştirakçılar və ziyarətçilər Azərbaycan müdafiə sənayesinin yenilikləri, inkişaf etməkdə olan potensialı ilə yaxından tanışlıq imkanı qazanacaqlar.

Sərginin işgüzar proqramı çərçivəsində ölkənin müdafiə və təhlükəsizliyi üçün nəzərdə tutulmuş innovativ tədqiqat, məhsul və texnologiyalar sahəsində təqdimatlar, eləcə də xarici nümayəndə heyətləri, istehsalçı şirkətlər və sifarişçilər ilə ikitərəfli görüşlər keçiriləcək. Beləliklə, "ADEX-2018" sərgisi ən son silah nümunələrini nümayiş etdirmək və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələr imzalamaq üçün ideal platformaya çevriləcək.

"ADEX-2018" sərgisinə yerli və xarici kütləvi informasiya vasitələri tərəfindən də böyük maraq göstərilir. Artıq sərgi 60-dan çox yerli və beynəlxalq aparıcı medianın - xəbər agentliklərinin, veb saytların, jurnalların informasiya dəstəyi ilə təmin olunub.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçiriləcək sərgiyə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi dəstək verir. Sərginin təşkilatçısı qismində "Caspian Event Organisers" (CEO) şirkəti iştirak edir.

# "Konflikt jurnalistikası məktəbi"nin çöl təlimləri başa çatdı

*Müdafiə Nazirliyinin tərəfdaşlığı ilə KİV nümayəndələrinin hərb sahəsində biliklərinin formalaşdırılması və artırılması məqsədilə "Dinc Dünya" Araşdırma Mərkəzinin icra etdiyi "Konflikt jurnalistikası məktəbi"nin təlimləri başa çatdı.*

Təlim planına əsasən, hərb sahəsindən yazan jurnalistlərin dağlıq ərazidə hadisə yerinə irəlilədikləri zaman qarşılarına çıxan maneələri dəf etmək üçün ixtisaslı təlimatçılar tərəfindən döyüş şəraitinə tam uyğunlaşdırılmış, relyefin tələblərinə cavab verən təlim məşqləri keçirildi. Təlim zamanı iştirakçılar sıldırım qayalıqlardan enərək su maneəsindən keçdilər. Dağdan enmə zamanı lazım olan avadanlıqlardan və vasitələrdən istifadə qaydaları təlimalanların nəzərinə çatdırıldı. Həmçinin iştirakçılar yüksəkliyə qalxarkən oksigen çatışmazlığı və digər problemlərlə üzləşməmək üçün qabaqlayıcı tədbirlər haqqında məlumatlandırıldılar. KİV nümayəndələrinə dağlıq ərazidə hərəkət edərək şərti düşmən mövqeyinin ələ keçirilməsi və yaxud qəfil basqına uğrayan zaman güllədən qorunması üçün düzgün yerlərin seçilməsi üsulları, çəkilişlərin aparılması qaydaları öyrədildi.

Növbəti gün iştirakçılara Dağ Təlim Mərkəzində şərti düşmən kəşfiyyatçıları tərəfindən pusquya uğramaları praktiki olaraq nümayiş etdirildi. Jurnalistlər yaranmış vəziyyətdə sağ qalmaq üçün beynəlxalq hüquq normalarında qeyd olunmuş maddələrdən istifadə etdilər. Daha sonra jurnalistlərə informasiya ardınca yollanarkən, keçilməz ərazidə piyada hərəkət edərkən özünü qoruma üsulları başa salındı.

Vahid yüksəkliklərin ələ keçirilməsi haqqında məlumatı operativ şəkildə redaksiyaya ötürmək məqsədi ilə təlimalan jurnalistlər uzun müddət şərti



düşmən qüvvələrinin arxasında çöl şəraitində qalmalı oldular. Bu müddət ərzində sutəmizləyici süzgəclərin, günəş kondensatorun düzəldilməsi və istifadə qaydaları təlimalanlara praktiki şəkildə nümayiş etdirildi. Dağlıq ərazidə hərəkət edən zaman səma cisimlərinə, saata, kompasa və s. əsasən cəhətlərin müəyyən edilməsi təlimalanlara öyrədildi. Həmçinin bataqlıq ərazilərdə dincəlmək üçün mütəxəssislər tərəfindən jurnalistlərə daldalanacaqların, plaş-çadır vasitəsilə talvarların düzəldilməsi qaydaları göstərildi.

Təlimatçı zabit onu da qeyd etdi ki, heyvan və bitki mənşəlli müxtəlif ərzaq məhsullarından istifadə etdikdə insan orqanizminin zülallara, piylərə, karbohidrogen, vitamin və mineral maddələrə olan ehtiyacı tamamilə ödənilir. "Adətən kəşfiyyat zamanı şəxsi heyətə quru ərzaq payı verilir. Həmin paya daxil olan məhsullar insan orqanizminin sutkalıq tələbatını ödəmək üçün tamamilə kifayətdir. Hazır qidaların olmadığı halda vəhşi heyvanları ovlamaq üçün ən münasib vaxt səhər sübh tezdən, yaxud axşam hava qaralan vaxtıdır. Bu məqsədlə, maskalanma şəraiti imkan verirsə, odlu silahdan, yaxud müxtəlif tələ, cələ və ilgəklərdən istifadə etmək olar. Cələ və ilgəkləri heyvan yuvalarının girəcəyində, təbii maneələrin və heyvanların su içdiyi yerlərin yaxınlığındakı cığırlarda qurmaq məsləhətdir". Qabaqcadan tutulmuş qurbağaların, tısbağaların, dovşanların, ilanların və digər heyvanların çiy şəkildə istifadəsi qaydaları izah edildi.

- Qidanı qəbul etmək, qızınmaq və başqa ehtiyacları ödəmək üçün vaxtaşırı dincəlmək lazımdır. Bu halda, düşmən tərəfindən aşkar edilməmək və istirahətə şərait yaratmaqdan ötrü sığınacaqlar düzəltmək vacibdir. İsti rayonlarda plaş-çadırdan sadə talvar düzəltmək olar. Bu cür talvarlar günəşin qızmar şüalarından qorunmağa imkan verir. Meşədə istər qış, istərsə də yay fəslində sığınacaq düzəltmək və onu maskalamaq çətin deyil. Budaqlardan, şüvüllərdən, yığılmış ağaclardan komalar, talvarlar və qazmalar düzəltmək olar.

İştirakçılara topoqrafik xəritələrin şərti işarələrindən istifadə qaydaları, yaralanma zamanı ilkin tibbi yardımın göstərilməsi, döyüş meydanından yaralıların təxliyə olunması, irəliləyərək sürünmə, düşmənlə əlbəyaxa zamanı özünü müdafiə, odlu və soyuq silahla silahlanmış düşməni zərərsizləşdirmə qaydaları və digər hərəkətlər praktiki olaraq nümayiş etdirildi.

Təlim planına əsasən "N" hərbi hissənin poliqonunda şəxsi heyət və zirehli texnikanın birgə iştirakı ilə döyüş səhnəsi nümayiş etdirildi. Artilleriya və güllə atəşi altında jurnalistlərə təhlükəsizliklərini qoruyaraq düzgün mövqedən informasiya əldə etmələri öyrədildi. Döyüş zamanı jurnalistlərin fərdi şəkildə topladıqları foto və video materiallar, bu zaman buraxılmış nöqsanlar müzakirə olundu.

Döyüş səhnəsi yekunlaşdıqdan sonra hər bir iştirakçı atıcı silahlardan 2-ci təlim atış çalışmasını yerinə yetirdilər. Çalışmanın nəticəsinin qiymətləndirilməsi aparıldı. Atış zamanı fərqlənənlər təlimin sonunda mükafatlandırıldı. Günün sonunda düşmənlə təmas xəttində yerləşən kəndlərin birində əhali ilə çay masası arxasında görüş keçirildi. Sakinlərlə ünsiyyət zamanı bölgədə baş verən hadisələr barəsində məlumatın toplanılması qaydaları öyrədilərək, yayılan informasiyanın dürüstlüyü və fəsadları ətrafında təlimalanlarla geniş müzakirə aparıldı.

Beləliklə, "Konflikt jurnalistikası məktəbi"nin ikinci mərhələsi sona çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# İşgəncələrə qarşı Azərbaycan komitəsi hauptvaxtda monitorinq keçirdi




*İşgəncələrə qarşı Azərbaycan komitəsi nümayəndəliyinin iştirakı ilə Müdafiə Nazirliyi Bakı Qarnizonu Hərbi Polis İdarəsinin tabeliyində olan hauptvaxtda monitorinq keçirildi. Komitənin sədri Tural Hüseynov, sədr müavini Elçin Şirinov, hüquqşünaslar Qartal Hüseynov və Anar Cavadov hauptvaxtda saxlanılan hərbi qulluqçular üçün yaradılan şəraitlə tanış oldular.*



Monitorinqin keçirilməsində məqsəd hərbi qulluqçuların saxlanma şəraiti, onlarla rəftar qaydaları, qidalanma rejimi və günün nizam qaydası ilə maraqlanmaqdı.

İşgəncələrə qarşı Azərbaycan komitəsinin sədr müavini Elçin Şirinov buradakı şərait və zabit heyətinin saxlanılan hərbi qulluqçularla münasibətindən razı qaldıqlarını bildirdi. "Kameralarda saxlanılan hər bir hərbi qulluqçu müasir yataq dəstləri, sanitar qovşaqlarla təmin olunub. Saxlanma kameralarında təbii havalanma və işıqlandırma yüksək səviyyədədir. Həmçinin hauptvaxtda hərbi qulluqçular üçün müasir standartlara uyğun sinif otağı və istirahət otaqları var. Hauptvaxtın zabit heyəti ilə saxlanılan hərbi qulluqçular arasındakı münasibət təqdirəlayiqdir."

Komitə sədrinin müavini Elçin Şirinov məlumat üçün bildirdi ki, saxlanılan hərbi qulluqçular gün ərzində 3 dəfə yeməklə təmin olunur, sinif otaqlarında tədris işləri ilə məşğul olurlar. "Günün qalan hissəsində hərbi qulluqçularla hərbi təlim və sıra hazırlığı keçirilir. Keçirilən monitorinq zamanı məlum oldu ki, hauptvaxtda iş prosesi beynəlxalq norma və standartlara uyğun aparılır. Hərbi qulluqçular da öz növbəsində, saxlanma şəraitindən və onlarla rəftardan razılıqlarını ifadə etdilər".

Ümumilikdə monitorinqin nəticələrinə görə vəziyyət qənaətbəxş qiymətləndirildi.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları.**

**2. Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normalarını pozmağa görə məsuliyyət.**

**Mövzu:** Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları.

*Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları*

Müharibə - dövlətlər, xalqlar və sosial qrupların münasibətinin dəyişməsi, siyasi-iqtisadi və digər məqsədlərə nail olmaq üçün zorakılıq vasitələrinin tətbiqi ilə bağlı mürəkkəb və çoxcəhətli ictimai-siyasi hadisədir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəşəriyyət tarixi müharibələrlə zəngindir və bu gün də müasir dünyada bəzən siyasi qərarların həllində zor tətbiq edilməsi hallarına rast gəlmək olur. Müharibələrin qarşısını almaq mümkün olmasa da, dünya dövlətlərinin əksəriyyəti tərəfindən qəbul edilmiş, beynəlxalq konvensiyalarda öz əksini tapmış hüquq qaydaları mövcuddur. Bu qaydalar beynəlxalq humanitar hüququn əsasını təşkil edir.

Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn bir sahəsi olub, həm beynəlxalq silahlı münaqişələr, həm də qeyri-beynəlxalq silahlı münaqişələrlə əlaqədar beynəlxalq hüququn subyektləri arasında yaranmış münaqişənin zərər vurduğu və ya zərər vura biləcəyi insanların və əmlakın mühafizəsi və müharibənin aparılmasının üsul və vasitələrinin məhdudlaşdırılması sahəsindəki münasibətləri tənzimləyən, həmçinin onun norma və prinsiplərinə görə məsuliyyəti müəyyənləşdirən beynəlxalq hüquq normalarının məcmusudur. Beynəlxalq humanitar hüquq silahlı münaqişə yarandıqda fəaliyyətə başlayır. Beynəlxalq humanitar hüququn obyektini silahlı münaqişənin gedişində döyüşən tərəflər arasında yaranan ictimai münasibətlər təşkil edir.

Beynəlxalq humanitar hüquq - silahlı münaqişələr zamanı tətbiq olunan, döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran və silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönəlmiş beynəlxalq-hüquqi normaların məcmusunda deyilir. "Beynəlxalq humanitar hüquq" görkəmli alim Jan Pikte tərəfindən beynəlxalq-hüquqi leksikona daxil edilmiş yeni termindir. Beynəlxalq hüququn bu mühüm sahəsi müxtəlif cür adlandırılır: silahlı münaqişələr dövründə tətbiq edilən hüquq; müharibə hüququ; silahlı münaqişələr hüququ; müharibə qanunu və s. Xüsusi vurğulamaq lazımdır ki, beynəlxalq humanitar hüquq müharibəni qadağan etmir. O, obrazlı desək, birbaşa döyüş meydanına gəlir və sırf humanist mövqedən çıxış edərək, artıq başlamış müharibəni, onun xarakterindən və başlama səbəblərindən asılı olmayaraq, müəyyən normativ çərçivəyə salmağa can atır. Bundan çıxış edərək, beynəlxalq humanitar hüququn iki başlıca məqsədini göstərmək olar:

1. Kombatant olmayanları, yəni mülki şəxsləri və sıradan çıxmış hərbi qulluqçuları müdafiə etmək və onlarla humanist rəftarı təmin etmək. Bu məqsədi beynəlxalq humanitar hüququn bir hissəsi olan "Cenevrə hüququ" həyata keçirir. "Cenevrə hüququ" termini, əsas etibarilə, müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyalarına istinad edilərək götürülmüşdür.

2. Seçimsiz zorakılığın, artıq əzab-əziyyətin qarşısını almaq üçün, döyüş aparılmasının müəyyən metod və vasitələrini məhdudlaşdırmaq və ya qadağan etmək. Beynəlxalq humanitar hüququn bu məqsədinin həyata keçirilməsinə yönəlmiş hissəsi "Haaqa hüququ" adlandırılır (1899 və 1907-ci illərdə Haaqa sülh konfranslarında qəbul olunmuş müvafiq sənədlərə istinadən).

Beynəlxalq humanitar hüquq, əsas etibarilə, müqavilələrə söykənir. Bu sahədə aşağıdakı sazişləri göstərmək olar:

- partlayıcı və yandırıcı güllələrin istifadəsinin ləğv edilməsi haqqında Sankt-Peterburq Bəyannaməsi (11 dekabr 1868);
- asanlıqla dönə bilən və yastılanan güllələrin istifadə olunmaması haqqında Haaqa Bəyannaməsi (29 iyul 1899);
- quru müharibəsinin qanun və adətləri haqqında IX Haaqa Konvensiyası (18 oktyabr 1907);
- boğucu, zəhərli və ya digər belə qazların və bakterioloji vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında Cenevrə Protokolu (17 iyun 1925);
- genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (9 dekabr 1948);
- müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyaları (12 avqust 1949);
- quruda döyüşən silahlı qüvvələrdə yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (I Konvensiya);
- dənizdəki silahlı qüvvələrdə yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (II Konvensiya);
- hərbi əsirlərlə rəftara dair Cenevrə Konvensiyası (III Konvensiya);
- müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair Cenevrə Konvensiyası (IV Konvensiya);
- silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Haaqa Konvensiyası (14 may 1954);
- bakterioloji (bioloji) və zəhərli (toksinli) silahların işlənib hazırlanması, istehsal edilməsi və ehtiyata toplanılmasının qadağan olunması və onların məhv olunması haqqında Konvensiya (10 aprel 1972);
- ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında Konvensiya (10 dekabr 1976);
- 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarına əlavə Protokollar;
- Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol (I Protokol) 8 iyun 1977;
- qeyri-beynəlxalq xarakterli silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol (II Protokol) - 8 iyun 1977;
- hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Konvensiya (10 oktyabr 1980).

Sadalanmış bu beynəlxalq müqavilələr içərisində beynəlxalq humanitar hüquq üçün ən əhəmiyyətlisi, şübhəsiz ki, müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyaları və onlara 1977-ci il Əlavə Protokollarıdır.

Beynəlxalq humanitar hüququn əsas prinsipləri:

- hərbi zərurət və ictimai qaydanın qorunması həmişə insana hörmətlə uzlaşdırılmalıdır;
- sıradan çıxarılmış şəxslər, həmçinin bilavasitə döyüşlərdə iştirak etməyənlər hörmət, müdafiə və humanitar hüquqa malikdirlər;
- döyüş aparılmasının metod və vasitələrinin seçilməsində vuruşan tərəflərin üzərinə məhdudiyyətlər qoyulması.

Beynəlxalq humanitar hüququn tətbiqi prinsipləri:

Toxunulmazlıq prinsipi.

Bu prinsipə əsasən:

- döyüş meydanında həlak olan toxunulmazdır; əsir düşənlərin həyatının mühafizə olunmaq hüququ vardır. Açıq surətdə tabe olan (əsir düşən) şəxsləri öldürmək olmaz;
- işgəncə, alçaldıcı və qeyri-insani cəza qadağan olunur;
- hər bir kəsin qanun qarşısında insan hüquqlarının tanınması hüququ vardır;
- hər bir kəsin onun şərəfinə, ailə hüquqlarına, əqidəsinə və adətlərinə hörmət hüquqları vardır;
- əzab çəkən hər kəsə və onun konkret fiziki-psixoloji vəziyyətində zəruri olan qulluq göstərilməlidir;
- hər bir kəsin ailəsi ilə əlaqə saxlamaq və kömək almaq hüququ vardır;

Müdafiə prinsipi.

Dövlət onun əlinə keçmiş şəxsin istər milli, istərsə də beynəlxalq səviyyədə hüququnu təmin etməlidir. Əsir onu tutmuş qoşunların deyil, onların tabe olduqları dövlətin ixtiyarındadır. Düşmən dövlət əsir götürdüyü şəxslərin şəraiti və saxlanmasına görə, işğal etdiyi ərazidə isə ictimai asayişin və xidmət sahələrinin qorunmasına görə məsuliyyət daşıyır.

Müharibə hüququna aid prinsiplər

- müharibə edən tərəflər mülki əhali və mülki obyektləri qorumaq üçün həmişə mülki əhali və döyüşənləri fərqləndirməlidir;
- əsas məqsədi mülki əhalini qorxuya salmaq olan zorakılıq aktları ilə hədələmə qadağan olunur;
- münaqişə edən tərəflər mülki əhalini qorumaq və ya heç olmazsa, mülki əhali arasında təsadüfi itkilər və ya təsadüfi zərərdən imkan daxilində qaçmaq üçün mümkün olan bütün ehtiyat tədbirlərini görməlidir;
- yalnız Silahlı Qüvvələrin heyətinə daxil olan şəxslər düşmən üzərinə hücum edə və ona müqavimət göstərə bilərlər;
- mülki obyektlər hücum obyekti ola bilməz. Mülki əhalinin yaşaması üçün zəruri olan obyektləri məhv etmək və ya başqa yerə köçürmək qadağandır;
- qarət qadağandır.

Hərbi əməliyyatlar aparılmasının metod və vasitələrinə əsasən:

- hədəflərə fərq qoymadan edilən hücumlar qadağandır;
- mülki əhali arasında itkilərə səbəb olacaq və mülki obyektlərə zərər vura biləcək hücumlar qadağandır;
- mülki əhali arasında müharibə aparmaq metodu kimi aclıqdan istifadə etmək qadağandır;
- xəyanətə əsaslanan hərbi əməliyyatlar qadağandır.

*Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normalarını pozmağa görə məsuliyyət*

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bütün qanunvericilik aktları beynəlxalq hüququn normalarına uyğunlaşdırılmışdır. O cümlədən də, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 116-cı maddəsilə silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa görə cinayət məsuliyyəti müəyyən edilib.

Silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarını pozmaq dedikdə aşağıdakılar nəzərdə tutulur:

- mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmə;
- ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma;
- sülhməramlı tədbirlərin həyata keçirilməsinə və ya humanitar yardım göstərilməsinə cəlb olunmuş şəxsi heyətə, o cümlədən Qırmızı Xaç və ya Qızıl Aypara fərqləndirici emblemləri olan heyətə, tikililərə, qurğulara, nəqliyyat vasitələrinə hücum etmə;
- hərbi əməliyyatların aparılma üsulu kimi mülki əhali arasında yaranmış aclıqdan istifadə etmə;
- yetkinlik yaşına çatmayanları Silahlı Qüvvələrə cəlb etmə;
- hərbi zərurətdən irəli gəlməyən genişmiqyaslı dağıntılar törətmə;
- müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə;
- hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən, o cümlədən, xüsusi mühafizə olunan tarixi, dini, təhsil, incəsənət, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə;
- mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etmə;
- hərbi əməliyyat bölgələrində əhaliyə qarşı zorakılıq göstərmə, quldurluq etmə, əmlaklarını məhv etmə, habelə hərbi zərurət bəhanəsi ilə əmlakı qanunsuz olaraq alma;
- dağıdılması mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara hücum etmə;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə qadağan edilmiş silahları, müharibə vasitələrini və üsullarını silahlı münaqişələrdə tətbiq etmə.

Yuxarıda göstərilən hüquq pozuntularına görə yeddi ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən edilmişdir.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu yekunlaşdırarkən dinləyicilərə bir daha xatırlatmalıdır ki, ermənilərin Azərbaycana qarşı işğalçılıq planlarını həyata keçirərkən həm dinc əhaliyə, həm də yaralanmış və əsir düşmüş döyüşçülərimizə qarşı törətdikləri vəhşiliklər II Dünya müharibəsində faşistlərin törətdikləri vəhşiliklərlə müqayisədə daha dəhşətlidir.*

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Məişət*

# “Hər cür şəraitlə təmin olunmuşuq”

Şəxsi heyətin sağlam mənəvi-psixoloji durumu və döyüş ruhu qələbəni təmin edən ən başlıca amillərdəndir. Müasir dövrdə Azərbaycan əsgərinə göstərilən diqqət və qayğı, yaradılan yüksək məişət şəraiti onların əsgəri xidmətlərini uğurla başa vurmaları üçün zəmin yaradır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı hər an əsgərlərin üzərindədir. Bu qayğının nəticəsidir ki, əsgərlərin məişət şəraiti və təminatları yüksək səviyyəyə çatdırılıb. Hərbi hissələrimizdə yeni yeməkxanalar, yataqxanalar, hamam və camaşırxanalar şəxsi heyətin istifadəsinə verilib.

"N" hərbi hissəsində ezamiyyətdə olarkən bir daha bunun şahidi olduq. Hərbi hissədə olduğumuz müddətdə əsgərlərin gündəlik fəaliyyəti, keçirilən məşğələlər və məişət şəraitləri ilə tanış olduq. Hərbi hissənin şəxsi heyətlə iş üzrə zabiti ilə əsgər yataqxanasına yollandıq. Yataqxananın təmizliyi və səliqəsi göz oxşayırdı. Divarları ordu quruculuğundan bəhs edən fotostendlər, həmçinin divar qəzeti, Milli qəhrəmanlar və şəhidlərimizin guşəsi bəzəyirdi. Gördüklərimiz hərbi hissədə ideoloji işin aparılmasına, təbliğat və təşviqat vasitələrinin daim qaydasında olmasına ciddi nəzarət olunduğunun nəticəsidir.

Əsgər yataqxanasına daxil olduq. İkimərtəbəli çarpayılar, təmiz mələfələr, əl-üz dəsmalları əsgərlərin yüksək sosial-məişət şəraitindən xəbər verirdi. Hər əsgər üçün fərdi ayrılmış tumbada isə hər cür ləvazimat gözə dəyirdi. Bunların hamısı ordu quruculuğunda aparılan islahatların, şəxsi heyətin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən məqsədyönlü işlərin nəticəsidir.

"Gördüyünüz yataq dəstləri hər həftə təmizləri ilə əvəz olunur. Həftə sonu köhnə camaşırlar yığılaraq camaşırxanaya təhvil verilir, yuyulub ütüləndikdən sonra bölmələrə qaytarılır. Həmçinin mütəmadi olaraq yataqxanada həkimlərimiz tərəfindən dezinfeksiya işləri də aparılır. Əsgərlərimizin hər biri bizim doğma övladlarımızdır. Onlara diqqət göstərir, qayğıları ilə yaxından maraqlanırıq. Gördüyünüz kimi heç nədən korluq çəkmirlər. Bütün təminatları da qaydasındadır. Yüksək əhval-ruhiyyə ilə xidmət edirlər", - mayor Süleyman Vəliyev deyir.



Yataqxanada olan əsgərlər Elşad İsazadə, Ayaz Ömərov və Şahin Əhmədovla həmsöhbət olduq. Onlar yataqxananın səliqə-sahmanı ilə məşğul olurdular. Hərbi xidmətə Xaçmaz rayonundan çağırılmış Ayaz söhbətə başladı:

- Hərbi xidmətə gələn hər gənc kimi mənim də arzum Vətənə borcumu layiqincə yerinə yetirməkdir. Hərbi xidmətə çağırıldığım gün çox həyəcanlı idim. Əsgəri formamı geyinib, Vətən keşikçisi olmağın qürurunu yaşayırdım. Hərbi hissədə hər cür şəraitlə təmin olunmuşuq. Yataqxanamız kimi, yeməkxanamız və digər təminatlarımız da qaydasındadır. Üzərimizə yalnız bir vəzifə düşür - nizam-intizamlı olmaq, nümunəvi xidmət etmək, şanlı ordumuzun adına layiqli əsgərlər olaraq bizə olan etimadı doğrultmaq.

Digər həmsöhbətim Elşad isə hərbi xidmətə Yardımlı rayonundan çağırılıb.

"Vəzifələrimizin öhdəsindən layiqincə gəlib, valideynlərimizin yanına alnıaçıq, başıuca qayıtmaq üçün var qüvvəmizlə çalışırıq. Torpaqlarımızın bir qisminin işğalda olduğu bir vaxtda hərbi xidmətin vacibliyini mən də yaxşı başa düşürəm. Vətənin bu dar günlərində bizim üzərimizə böyük məsuliyyət düşür. Xidmətimiz uğurla keçir, hərbi biliklər, silahlardan istifadə etməyi, döyüş taktikasını dərindən öyrənirik. Hər an Ali Baş Komandanın döyüş əmrinə hazır olan əsgərlər kimi formalaşırıq. Bunun üçün hər cür şəraitimiz və savadlı komandirlərimiz var. Yaradılan yüksək məişət şəraiti və təminat da ruh yüksəkliyimizi daha da artırır və bacarıqlı əsgərlər kimi formalaşmağımıza zəmin yaradır. Əsgəri xidməti uğurla keçmək bizim mənəvi borcumuzdur", - əsgər E.İsazadə deyir.

- Hərbi hissəyə ayaq basdığım ilk gündən doğma münasibət görmüşəm - əslən Tovuz rayonundan olan əsgər Şahin Əhmədov söhbətə qoşulur. - Hər gənc kimi mən də Vətən qarşısında övladlıq borcunun öhdəsindən uğurla gəlmək üçün var qüvvəmlə çalışıram. Hərbi hissəyə gəldiyim gündən qarşılaşdığım doğma münasibət, qayğı ordumuza olan rəğbətimi daha da artırdı. Günlər keçdikcə bu qayğını daha çox hiss etdim. Yataqxanamızda hər cür şəraitimiz var. Bir sözlə, heç nədən korluq çəkmirik. Mən bütün əsgər yoldaşlarım adından Ali Baş Komandanımıza, Müdafiə nazirimizə təşəkkürümü bildirirəm ki, bizim üçün belə yüksək şərait yaradıblar.

Şahidi olduğum yüksək məişət şəraiti bir daha sübut edir ki, ölkə rəhbərliyi tərəfindən hər bir zabitə, gizirə, əsgərə yüksək diqqət və qayğı göstərilir. Şəxsi heyətin məişət şəraitinin ən yüksək səviyyəyə çatdırılması istiqamətində daim işlər aparılır. Bu da hər bir valideyni bir daha əmin edir ki, övladlarının uğurlu xidmət etməsi üçün Azərbaycan Ordusunun bütün bölmələrində yüksək məişət şəraiti mövcuddur və onlar komandir qayğısı ilə əhatə olunublar.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# FNSS “Kaplan-20” PDM-i



Piyadaların FNSS "Kaplan-20" tırtıllı, zirehli döyüş maşını Türkiyənin "FNSS Savunma Sistemleri" şirkəti tərəfindən hazırlanıb. İlk dəfə “İDEF-2015” 12-ci beynəlxalq sərgisində nümayiş etdirilib. "Kaplan-20" PDM-i minalardan, reaktiv qumbaralardan və artilleriya mərmilərindən yüksək səviyyədə qorunmağa qadirdir. Zirehli maşın müasir elektron sistemləri, yüksək keyfiyyətli blok sistemi, asılqan və tırtılla təchiz edilib, bu da ona maşında ağır sistemlərin yerləşdirilməsinə imkan verir. "Kaplan-20"-nin tırtıllı hərəkət hissələri müxtəlif hava şəraitində, asfalt və torpaq yollarda, yumşaq, bataqlıq və qayalıq yerlərdə işləməyə imkan verir. Zirehli maşının üstündə (damında) iki xüsusi lyuk yerləşdirilib. Onlardan biri şəxsi heyət üçün, digəri xüsusi olaraq sürücünün maksimal görünüş sahəsini artırmaq üçün nəzərdə tutulub.

Maşında heyət və desantların təhlükəsizliyini təmin etmək üçün iki yanacaq bakı maşının arxa hissəsində yerləşdirilib. "Kaplan-20" PDM-nin arxa hissəsində quraşdırılmış iki fəvvarə su maneələrini dəf etməyə, güclü su axınının qarşısını almağa, yerində çə fırlanmağa və geriyə hərəkət etməyə imkan verir. Maşının gövdəsi zirehli polad ərintiləri texnologiyası əsasında hazırlanıb. Gövdəsi hermetikdir, bütün lyuklar və dam hissəsi suyun içəri daxil olmaması üçün möhkəm bağlanıb. Güc qurğusu və sürücü üçün maşının qabaq hissəsində yer ayrılıb.

Zirehli maşında səkkiz nəfər desant, qülləli variantında isə altı desant yerləşdirmək olar. Bundan başqa "Kaplan-20" piyada döyüş maşınında onun yaşarlığını artırmaq üçün snayper atəşinin aşkar edilməsi haqqında xəbərdarlıq, kütləvi qırğın silahından müdafiə, müasir kommunikasiya sistemləri, geniş sahə görünüşünə malik olan periskop, gecəgörmə sistemləri ilə də təchiz olunub.

"Kaplan-20" döyüş maşınının uzunluğu 6,5 metr, eni 3,15 metr (aktiv mühafizəsiz), hündürlüyü 2 metrdir. Silahlanmasına 30 millimetrlik top, onunla birlikdə qoşa 7,62 mm-lik pulemyot daxildir. Şosse yolda maksimal sürəti saatda 70 kilometr, hərəkət uzaqlığı 650 kilometr təşkil edir. Müxtəlif maneələri keçməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə Silahlı Qüvvələri təhlükəli terrorçunu İraq ərazisində məhv edib




Türkiyə Silahlı Qüvvələrinin İraqın şimal-qərbində yerləşən Sincar bölgəsində həyata keçirdiyi antiterror əməliyyatı zamanı PKK-KCK terror təşkilatının təhlükəli simalarından sayılan İsmail Özdən məhv edilib.

"Mam Zeki Şengali" ləqəbli bu terrorçu Türkiyənin təhlükəsizlik qüvvələri tərəfindən axtarışda olub.

Sincar bölgəsində təşkil olunan xüsusi əməliyyata PKK terrorçularının qətlə yetirdiyi 11 aylıq Bedirhan Mustafa Karakayanın adı verilib.

### Kabildə naməlum şəxslər Əfqanıstan ordusunun hazırlıq mərkəzinə hücum edib



Naməlum silahlı şəxslərdən ibarət silahlı qrup Əfqanıstan ordusunun Kabildə yerləşən hazırlıq mərkəzinin binasına hücum edib. Həlak olanlar və yaralananlar barədə məlumat verilmir.

Hücum yerli vaxtla saat 10:15 (Bakı vaxtı ilə 09:15) radələrində başlayıb. Hazırda həmin rayonda ağır döyüşlər gedir.

Hələlik regionda fəaliyyət göstərən heç bir qruplaşma hadisənin məsuliyyətini üzərinə götürməyib.

Xatırladaq ki, avqustun 15-də Kabildə yerləşən özəl təhsil müəssisəsində partlayış nəticəsində azı 48 nəfər həlak olub, 67 nəfər isə yaralanıb. Partlayışın məşğələ vaxtı binanın içərisində intiharçı-terrorçu tərəfindən törədildiyi bildirilir.

### Kabildə partlayış nəticəsində ölənlərin sayı 48 nəfərə çatıb



Əfqanıstan paytaxtının qərbində yerləşən təhsil müəssisəsində baş verən partlayış nəticəsində həlak olanların sayı 48 nəfərə çatıb, daha 67 nəfər isə yaralanıb.

Partlayış "Mawoud Academy" özəl təhsil müəssisəsinin binasında baş verib. Hakimiyyət orqanlarının məlumatına görə, partlayıcı qurğunu intiharçı-terrorçu işə salıb. Partlayış məktəbdə məşğələ zamanı törədilib. Orada universitetə qəbul üçün hazırlıq məşğələsi keçirilirdi. Facie qurbanlarının və yaralıların əksəriyyəti 18 yaşa yaxın gənclərdir.

Əfqanıstan Prezidenti Əşrəf Qani hadisə ilə bağlı təhqiqat aparmaq barədə göstəriş verib. Hələlik regionda fəaliyyət göstərən heç bir qruplaşma partlayışın məsuliyyətini öz üzərinə götürməyib.

### Yerevanda Səhiyyə Nazirliyinə etiraz edən vətəndaş hökumət evi binasını partlatmaqla hədələyib



Ermənistan paytaxtında Səhiyyə Nazirliyinə etiraz edən vətəndaş "911" xidmətinə zəng edərək hökumət evi binasında bomba yerləşdirdiyini bildirib.

Ermənistan FHN-in əməkdaşları dərhal hadisə yerinə gələrək hökumət evindəki insanları təxliyə ediblər. Aparılan araşdırmalardan sonra binada heç bir partlayıcı qurğunun aşkar edilmədiyi haqqında məlumat yayılıb.

Təxliyə olunan işçilərə psixoloji və tibbi yardım göstərilib, hökumət strukturlarının fəaliyyəti bərpa olunub.

**AZƏRTAC-ın materialları əsasında**

*Ordu və cəmiyyət*

# Əsgər oğullarımız bizə qələbə sevinci yaşadacaqlar

Hər bir insan üçün həyatda elə anlar olur ki, yaddaşımızda silinməz izlər buraxır. Həmin anları isə gülümsəyərək, sevinclə, qürurla xatırlayırıq. Xidməti dövrdə də belə anlar çox olur. Və hər kəsin yaddaşına qızıl hərflərlə yazılır. Kimisi orduya gəldiyi günü, kimisi ilk döyüş növbətçisi çıxdığı günü, kimisi təlimlərdə silahdan ilk dəfə atəş açdığı günü, kimisi də əsgər adı qazanmaq üçün Hərbi andı qəbul etdiyi günü unutmur. Ezamiyyətlərdə olarkən əsgərlərə "Ən yadda qalan günün hansıdır?" sualını ünvanladıqda çoxları Hərbi andı qəbul etdiyi günü söyləyirlər.

"N" hərbi hissəsində əlamətdar bir gündür. Gənc əsgərlərimiz Hərbi andı qəbul edərək ordu sıralarına daxil olurlar. Onlarla söhbətləşmək, fikirlərini bölüşmək, valideynlərin gözlərindəki sevinc qığılcımını görmək üçün səbirsizlənirəm. Budur, mərasim başlayır və adət-ənənəyə uyğun olaraq davam edir. Sıra meydanının kənarında dayanan valideynlərin gözləri öz övladlarını axtarır. Övladlarına baxan valideynlərin "əsgər balam", "Yaşasın Azərbaycan əsgəri" pıçıltılarını eşidirəm. Mərasim başa çatır və hər kəsin səbirsizliklə gözlədiyi an yetişir. O an gördüyüm mənzərə məni qürurlandırır, gözlərim dolur. Övladını bağrına basıb ağlayan analar, nəvəsinin əllərindən öpüb kövrələn nənələr, əsgər papağını başına qoyub "Ən böyük əsgər bizim əsgər" deyərək səslənən qardaşlar... Yaşanan izdihamda diqqətimi daha çox çəkən gənc əsgərin atasına dediyi sözlər olur. "Əziz atam! Oğlun əsgər Abbasov bu gün Azərbaycan dövlətinə və xalqına sədaqətlə xidmət edəcəyinə, Vətən torpaqlarını öz namusu kimi qoruyacağına, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə qanı və canını əsirgəməyəcəyinə and içdi."



Əsgər sözünü bitirdikdən sonra onlara yaxınlaşıb həmsöhbət oluram. Söhbət zamanı Mübariz Abbasov övladıyla qürur duyduğunu bildirdi. "Mən sevinirəm ki, oğlum Vətənin keşiyində dayananlar sırasındadır. Təkcə oğlumla yox, bütün Azərbaycan əsgəriylə fəxr edirəm. Nə xoş bizə ki, bu gün ölkəmiz, o cümlədən ordumuz bu cür Azərbaycan gənclərinin çiyinləri üzərində yüksəlir. Bu gəncliklə nə qədər qürur duysaq azdır. Hər bir valideyni bugünkü gün münasibətilə təbrik edirəm. Arzu edirəm ki, qısa zamanda dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında işğalda olan torpaqlarımızı azad etsinlər. Biz inanırıq ki, övladlarımız bizə qələbə sevinci yaşadacaqlar."

Gənc əsgər İbrahim Abbasov da düşüncələrini bizimlə paylaşdı. O 20 Yanvarda, Xocalı faciəsində şəhid olan soydaşlarımızın qisasının tezliklə alınacağını qeyd etdi.

- Bu gün Azərbaycan əsgəri adını aldıq. Bundan sonra əsas tapşırıqlarımız başlayacaq. Ana Vətənimizin keşiyində qürurla dayanacaq, müdafiə edəcəyik. Xidmətimi ön xətdə davam etdirmək istəyirəm. Çünki düşmənə yaxın olub onun hər addımını izləmək, məqam çatdığı anda isə məhv etmək lazımdır. Onlardan bütün şəhidlərimizin qisasını alacağımız gün üçün tələsirəm.

Bəli, bu gün təkcə əsgər İbrahim Abbasov yox, bütövlükdə millətimiz gecikmiş qisas vaxtını gözləyir. Mən əminliklə deyirəm ki, o vaxt çox uzaqda deyil, lap yaxındadır. Bir gün Ali Baş Komandanımızın əmri ilə ordumuz irəli gedəcək və düşmən tapdağındakı hər qarış torpağımızı azad edəcəkdir.

**Baş leytenant Məhəmməd NƏSİRLİ, "Azərbaycan Ordusu", foto çavuş N.PƏNAHOVUNDUR**

# Veteranlar hərbi hissədə olublar

İctimaiyyət-ordu münasibəti, ictimaiyyətin-orduya inamı, güvənci həmişə yüksək olub. Bu inam, bu güvənc 2016-cı ilin aprelindən sonra daha da dönməzləşib. Bu və ya digər ictimai təşkilatın nümayəndələri, şairlər, yazıçılar, incəsənət xadimləri vaxtaşırı hərbi hissələrdə olur, əsgərlərlə söhbətləşir ki, bu da özlüyündə ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında kifayət qədər əhəmiyyətlidir.

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi Kəlbəcər rayon şöbəsinin təşkilatçılığıyla bir qrup veteran bu günlərdə "N" hərbi hissəsində olub. Veteran sözü həmişə həyati faktlara, hadisələrə əsaslanır. Veteranların söhbətləri, xatirələri, müəyyən mənada, vətənpərvərlik mövzusunda mühazirə, mükalimləşmə hesab edilə bilər. AVMVİB Kəlbəcər rayon şöbəsinin sədri Ramiz Əliyev bu qəbil tədbirlərin vətəndaşlıq borcu olduğunu deyir:

- Biz döyüşlərdə iştirak etmişik. Müəyyən təcrübələrimiz var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dövləti, Azərbaycan xalqı Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək" - kəlamı biz veteranların da istəyini ifadə edir. Danışıqlar baş tutmasa, Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan döyüşlə azad edəcəyik. Vaxtaşırı bu və ya digər hərbi hissələrdə oluruq. Əsgərlərimiz əmin olsunlar ki, həmişə onların yanındayıq, onlara inanırıq və güvənirik.

Əsgərlər veteran ziyalıların, mədəniyyət işçilərinin, qazilərin söhbətlərini, tövsiyələrini, dövlətin orduya qayğısı haqqında fikirlərini maraqla dinləyiblər.

Qonaqlar əsgərlərə qiymətli hədiyyələr təqdim ediblər. Görüş bədii proqramla tamamlanıb.

**Mübariz MUSAYEV, "Azərbaycan Ordusu"**

# ABŞ-ın populyar radio-şousunun efirində Dağlıq Qarabağ münaqişəsindən bəhs olunub

Xəbər verdiyimiz kimi, Amerika Birləşmiş Ştatlarının məşhur və geniş auditoriyaya malik olan "Con Batçelor Şou" radioverilişinin aparıcısı Con Batçelor Azərbaycanda səfərdə olub və ölkəmiz haqqında yeddi müxtəlif səpkili veriliş hazırlayıb.

AZƏRTAC xəbər verir ki, "Con Batçelor Şou"da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də bəhs olunub.

Radioverilişdə Con Batçelor Dağlıq Qarabağ münaqişəsi barədə qısa məlumat verib, verilişdən sonra cəbhə xəttinə yaxın olan Tərtər rayonuna səfər edəcəyini bildirib.

Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov amerikalı dinləyicilərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib, münaqişənin həlli istiqamətində atılan addımlardan danışaraq deyib: "Biz artıq neçə illərdir ki, danışıqlar aparırıq. Təəssüf ki, hələlik uğurlu nəticə əldə edilməyib. Lakin insanlar sülhün necə əldə oluna biləcəyini başa düşürlər. Biz Ermənistan rəhbərliyinin öz xalqının gələcəyini düşünəcəyinə ümid edirik".

Con Batçelor qeyd edib ki, Ermənistanın inkişaf yollarından biri də Azərbaycandan başlayan və Gürcüstan ərazisindən keçən dəmir yolu xəttinə qoşulmaq olardı. Lakin Ermənistan bu münaqişəni həll etmədiyi üçün öz vətəndaşlarının gələcəyini təmin edə bilmir. Xüsusilə də gənc ermənilər inkişaf olmadığı üçün ölkələrini tərk etmək məcburiyyətindədir. Ermənistan hələ də XX əsrdə qalıb. O, Sovet İttifaqı dağıldıqdan sonra yaranan xaosda ilişib qalıb.

Elin Süleymanov vəziyyətin belə olduğunu təəssüf hissi ilə qeyd edib. "Məsələ təkcə dəmir yolunda deyil, avtomobil yolu, neft-qaz boru kəmərləri və digər layihələr də buraya daxil edilə bilər. Sülh özü ilə dividendlərini də gətirəcək", - deyə diplomat vurğulayıb.

# İdman

## "Qarabağ" klubunun UEFA Avropa Liqasındakı rəqibi bəlli olub




Ağdamın "Qarabağ" klubunun UEFA Avropa Liqasının play-off mərhələsindəki rəqibi məlum olub.

Bu, Moldovanın "Şerif" klubudur. Moldovalılar UEFA Avropa Liqasının III təsnifat mərhələsində İslandiyanın "Valur" komandasını mübarizədən kənarlaşdırıb - 1:0, 1:2.

"Qarabağ" klubu isə UEFA Çempionlar Liqasının birinci təsnifat mərhələsində Sloveniyanın "Olimpiya" klubunu, ikinci mərhələdə Albaniyanın "Kukesi" komandasını mübarizədən uzaqlaşdırıb. Ağdamlılar III təsnifat mərhələsində BATE (Belarus) səddini keçə bilməyərək UEFA Avropa Liqasında mübarizə aparmalı olub.

Qeyd edək ki, "Qarabağ" və "Şerif" klubları arasında ilk oyun avqustun 23-də keçiriləcək. Cavab qarşılaşması isə avqustun 30-da oynanılacaq.

## Zabit Səmədov muay-tay çempionu Bris Quidona qalib gəlib




Azərbaycanlı K-1 döyüşçüsü, kikboksinq üzrə dəfələrlə dünya və Avropa çempionu olmuş Zabit Səmədov muay-tay üzrə fransalı çempion Bris Quidon ilə qarşılaşıb.

Çeçenistanın paytaxtı Qroznıda baş tutan döyüş Zabitin qələbəsi ilə yekunlaşıb.

Döyüş Çeçenistanın ilk prezidenti Əhməd Hacı Kadırovun doğum gününə həsr olunub.

## Şəhriyar Məmmədyarov "Grand Chess Tour"da üçüncü yeri tutub



ABŞ-ın Sent-Luis şəhərində keçirilən "Grand Chess Tour 2018" seriyasının üçüncü mərhələsi - "Saint Louis Rapid & Blitz" turniri Hikaru Nakamuranın qələbəsi ilə başa çatıb. Blits üzrə yarışların ikinci dövrəsində amerikalı şahmatçı 9 mümkün xaldan 5,5 xal toplayıb və bununla da topladığı xalları 22,5-ə çatdırıb. Nakamura onu izləyən Maksim Vaşye-Laqravı 1 xal üstələyib.

Üçüncü yeri 21 xalla (4) şahmatçımız Şəhriyar Məmmədyarov, dördüncü yeri 20 xalla (4,5) İtaliya təmsilçisi Fabiano Karuana tutub.

Yarış iştirakçılarının yekun mövqeləri (rapid + blits) belədir: 1.Hikaru Nakamura - 22,5 xal; 2.Maksim Vaşye-Laqrav - 21,5 xal; 3.Şəhriyar Məmmədyarov - 21 xal; 4.Fabiano Karuana - 20 xal; 5.Levon Aronyan - 18 xal; 6.Sergey Karyakin - 17 xal; 7.Lenyer Dominqes - 16 xal; 8.Aleksandr Qrişşuk - 15,5 xal; 9.Uesli So - 15 xal; 10.Vişvanatan Anand - 13,5 xal.

"Grand Chess Tour 2018"in sabah açılışı olacaq dördüncü mərhələsi - vaxta klassik nəzarət qaydasında keçirilən "Sinquefield Cup" turnirinin ilk qarşılaşmaları avqustun 18-də baş tutacaq. Təşkilatçılar tərəfindən nominant qismində hazırkı dünya çempionu norveçli Maqnus Karlsen çıxış edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Quliyev Rafiq Carulla oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 525
Nüsxə 3525